AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Hər gün Məmməd Arazla

## ONUN MİSRALARI HƏR GÜN DİLİMİZDƏDİ




**Əslində bu yazını böyük şairimizin cismən bizi tərk etdiyi gün üçün yazmışdım. Amma sonra fikrimi dəyişdim. Bunun da səbəbi oldu. Yəni bir xeyli götür-qoy etdim və tam şəkildə anladım ki, 1933-cü ildə doğulub, 2004-cü ilin son payızında dünyasını dəyişən böyük şairimizin əslində həmin ayrılıq gününə deyil, həmişə bizimlə olan gününə üz tutmalıyıq. Çünki bu cür insanlar, bu cür ruh sahibləri sadəcə doğulurlar, onlar dünyalarını dəyişmirlər.**




Kimlərsə bu fikirlərimi harasa yoza bilər. Yozsunlar, fərq etməz. Çünki Məmməd Araz, eləcə də digər böyük söz ustadlarımız cismən ailələri üçün, doğmaları üçün yaşayıblar və onlar üçün də dünyadan köç etmələri bir ailə acısı kimi daha çox önəm daşıyıb. Lakin sözə könül verəndən Xətainin qılıncını sıvırıb, Məmməd Arazın karandaşına çevirəndən sonra böyük şair artıq hamının ailə üzvünə, hamının sirdaşına, doğmasına, sevimlisinə çevirilmişdi. O indi təmsil etdiyi İbrahimovlar deyil, bütün Azərbaycanın nur çələngi, söz sultanı və vətəndaşı idi. Axı o, Vətən Daşı olmuşdu.

Bəli, artıq 10 ilin tamamına az qalıb və biz 10 ildi ki, arıq vücudu, böyük ürəyi olan, əl ağacına söykənib ayaqda duran Məmməd Arazı fiziki cəhətdən qarşılaya bilmirik. Nə "Azərbaycan" nəşriyyatına gələndə, nə də hansısa bir məclisdə, tədbirdə onun qoluna kimsə girmir. O, sözünün əlindən, qolundan tutub 10 ildi ki, həmin o tarixə qədər gəldiyi o yolu davam etdirir. Ona görə də 13 il Məmməd Arazsız demək, yazmaq hardasa özünü doğrultmur. Çünki böyük şair özünün "Vəsiyyəti" şeirində xatırladıb ki:

**Qoy mən**
**Qara torpaq üstündə**
**Üfüqə doğru gedən**
**Ağ yola bənzəyim...**

Bəli, özü-özlüyündə bu misralar hər şeyi deyir və biz bu ağ yolun ipini yumaq kimi sarıya-sarıya düşüb onun ardınca gedirik. O bizi özünün böyük dünyasına, sonsuz üfüqlərə, böyük və bütöv Azərbaycana, dilimizə sevgiyə, qardaşa güvəncə, Qarabağa aparıb. Özü də ağlamağı, sızlamağı unutdurmaqla. Çünki Məmməd Araz şeirində, Məmməd Araz sözündə ağlamağa, sızıltıya yer yoxdur.

**Pəncərəmi külək döyüb ağlasa,**
**Eyvanıma quşlar qonub ağlasa,**
**Ürəyini nalən yonub ağlasa,**
**İçində yan, ağı deyib ağlama,**
**Ağlamağın yeri deyil, ağlama.**

Məncə, bu misralar da Azərbaycanın mayasının nur olduğunu, yolunun nur olduğunu birmənalı şəkildə ifadə edir və bildirir ki, mayası, qayəsi nur olan bir məmləkətin övladı ağlaya bilməz. Təbii ki, bu böyük sevginin işığında:

**Bu gecə yuxumda Arazı gördüm,**
**Arazı belə tox görməmişdim heç.**
**Arazı bəxtindən çox razı gördüm,**
**Üstündən yol atdı: "Cəsarətlə keç!"**

Göründüyü kimi, böyük şairin hər günü, hər gecəsi Təbrizlə, Arazla, bütöv Azərbaycanla çiyindaş olub, sirdaş olub və bu da onun ömrünü əbədiləşdirib, onu ölümsüz edib. Elə ona görə də mən də bir oxucu kimi, hər gün misralarımın arasında heyrətdən donub qaldığım böyük şairin yaşadığına, yaşayacağına, günəşə, yerə, göyə, özümə inandığım kimi inanıram. Və bilirəm ki, onun hər misrası həm də nəsihətdi, örnəkdi, məktəbdi. Lap elə bu misralar kimi.

**Şairlər, sözləri qovlamayın**
**Gəlin yığışdıraq qafiyələri.**
**Təzə fikirlərə yaxın qoymayın,**
**Üzülmüş, süzülmüş qafiyələri.**

2004-cü ildə, bir son payızda doğmalarına, oxucularına cismən "Salamat qalın!" deyən Məmməd Araz elə həmin o andaca özünün əbədi yaşayacağına hər birimizi inandırdı.

Çünki o, dünyanın heç kimin olmadığını həmin o andan xeyli öncə söyləmişdi. Heç kimin olmayan bu dünyada bir Məmməd Arazın sözü, bir Məmməd Arazın ruhu mütləq hakim oldu. Təbii ki, tarixin yaddaşında, yaşayanların ürəyində. Və biz də o sevgiylə bir daha anladıq ki, məndən ötüb qardaşıma dəyən elə mənim özümə dəyir. Bax, məntiqin gücü bizim birləşməyimizə, Məmməd Araz işığına cəm olmağımıza sözün həqiqi mənasında çağırış oldu.

Bu gün cismani yoxluğu əbədi ömrünün kölgəsində qalıbdı.

Ona görə ki, böyük Yaradan bu xalqa onu bəxş edəndə hardasa qulağına pıçıldamışdı ki, Vətən sənə oğul deyəcək. Amma o, özünəməxsus təvazökarlığı ilə bunu tamam fərqli bir şəkildə ifadə etdi. Bildirdi ki:

**Vətən mənə oğul desə nə dərdim,**
**Mamır olub qayasında bitərdim.**

Ruhu başımızın üstündə, səsi, sözü yaddaşımızda və ürəyimizdə olan böyük şair gəl indi etiraf edək ki, daha doğrusu, bizim söylədiklərimizi qəbul et və bil ki, Azərbaycan sənə oğul deyir! Sən bu haqqı sözünlə, qələminlə, şəxsiyyətinlə və mübarizənlə əldə etmisən. Allahın və xalqın sevgisi, oxucu məhəbbəti sənin halal haqqını əbədiləşdiribdi.

**Artıq Azərbaycan oxucusu, Məmməd Araz sevənlər br məqamın da şahidi olublar. Belə ki, son iki ildə respublikanın müxtəlif bölgələrində Məmməd Araz günləri keçirilir. Bu günlərin təşəbbüsçüsü Azərbaycan Yazıçılar Birliyidir. Sevindirici haldır ki, bu il Məmməd Araz poezya günləri ölkənin cənubundan, yəni Lənkərandan start götürdü. Artıq həmin günlər çərçivəsində Lənkəran Dövlət Universitetində möhtəşəm tədbir keçirilib. Tədbirin əks-sədası Sumqayıtda da özünü oxuculara çatdırıb. Burada da Məmməd Araz sevənlər şairin xatirəsini böyük ehtiramla qeyd ediblər. Məmməd Araz poeziya günləri davam edlir. Yekun tədbiri daha möhtəşəm olacaqdır.**

Əbülfət MƏDƏTOĞLU